UOT 94
DOI:10.30546/3006-0346.2024.5.83.027

# ERMƏNİ TERRORUNUN HƏRƏKƏTVERİCİ QÜVVƏSİ – ERMƏNİ QRİQORİAN KİLSƏSİ

**MİRVARİ QURBANOVA**
*Bakı Dövlət Universitetinin doktorantı,*
*C.Naxçıvanski adına hərbi liseyin müəllimi*
*E-mail: mirvariqurbanova@mail.ru*

## Giriş

İnsanların sivil, sülh şəraitində yaşaması istiqamətində dini idarələrin rolu olduqca böyükdür. Dünyanın hər yerində mövcud olan səmavi dinlərin hər biri insanlar arasında bərabərlik, azadlıq, qarşılıqlı hörmət anlayışlarını geniş şəkildə təbliğ edərək insanlar arasında birliyi, asayişi qorumağı aşılasa da, bir sıra hallarda radikal qüvvələr din pərdəsi altında öz qatı millətçi mənafelərinə uyğun siyasət aparmağa çalışmışlar. Bunun bariz nümunələrindən biri erməni-Qriqorian kilsəsinin himayə etdiyi təşkilatların və şəxslərin fəaliyyətidir. Erməni xadimləri xristian dinini qəbul edəndən bir müddət sonra vahid xristian kilsəsindən uzaqlaşaraq təriqətçi monofizitlərin (İsanın yalnız bir – Tanrı təbiətinin olduğunu və onda insan təbiətinin olmadığını iddia edən xristian təriqətidir. Bu təlim xristianların çoxu tərəfindən rədd edilir – M.Q.) tərəfinə keçdilər. Erməni dövlətinin çox erkən süqutundan sonrakı yüzilliklərdə qriqorian kilsəsi erməni əhalisinin təkcə dini baxımdan deyil, həm də siyasi cəhətdən təmsilçisinə çevrildi. Zaman keçdikcə, kilsə öz missionerləri vasitəsilə qriqorianlığı Cənubu Qafqazın içərilərinə yayaraq təsir dairəsini böyütməyə başladı.

Erməni millətçiləri kilsə xadimlərinin fəal yardımları ilə XIX əsrdə Qərb dövlətlərinin antitürk siyasətinə dəstək olaraq Osmanlı dövlətinə qarşı qiyamlar qaldırmağa, türk-müsəlman əhaliyə qarşı bir-birinin ardınca qanlı terror aktları törətməyə başladılar. XIX əsrin ilk onilliklərində ermənilər həmçinin çar Rusiyasının Cənubi Qafqazı işğal etməsindən sonra özünə etnik dayaq yaratmaq siyasətindən yararlandılar. Çar hakimiyyəti nümayəndələri bu ərazilərə köçürdüyü ermənilər üçün xüsusi olaraq tarixi Azərbaycan torpaqlarında “Erməni vilayəti” təşkil edərək, Osmanlı imperiyası və Azərbaycanın əsas ərazisi arasında “bufer zona” yaratdılar. Bu proseslərdə, həmçinin 1836-cı ildə qədim alban kilsəsinin ləğv edilməsində də qriqorian kilsəsi fitnəkar rol oynadı. O vaxtdan etibarən ermənilər çar Rusiyasına arxalanaraq Azərbaycanda, Anadolu ərazisində türk-müsəlman əhaliyə qarşı kütləvi qırğınlar törətməyə başladılar [1, s.4-7].

Tarixi faktlar onu göstərir ki, erməni qriqorian kilsəsi hələ XIX əsrdən terrorizmi fəal dəstəkləməyə, dini təbliğat adı altında qonşu türk-müsəlman xalqlara qarşı nifrət aşılamağa çalışmışdır. Ermənilərin və onların himayədarı olan kilsənin törətdikləri hadisələrin mahiyyəti təkcə terror deyil, həm də müxtəlif xalqlara, xüsusən də azərbaycanlılara və türklərə qarşı ərazi iddiaları, onların torpaqları sayəsində öz dövlətlərini qurmaq istəyi idi. Bu fəaliyyətin mərkəzində erməni kilsəsinin müdafiə etdiyi şovinizm, separatçılıq və işğalçılıq siyasəti dayanırdı.

Qərb dövlətlərinin beynəlxalq terrorizmdən öz siyasi məqsədləri üçün istifadə etmək meyilləri erməni terrorçularının Azərbaycan ərazisində, xüsusən də Dağlıq Qarabağ və ətraf ərazilərdə qətl və qarətlər törətmələrinə zəmin yaratmışdır. Bu kontekstdə terroru İslamla əlaqələndirməyə çalışan Qərbin, xristian icmasının, erməni kilsəsinin terroru dəstəkləməsi və müdafiə etməsi ikili standartların aydın təzahürüdür.

Erməni kilsəsi öz istəklərinə nail olmaq üçün bir-biri ilə düşmən olan ölkələr arasında manevrlər etməklə müəyyən dövrlərdə Çar Rusiyası, İngiltərə və Fransa kimi dövlətlər tərəfindən himayə olunmuş, SSRİ və Almaniya kimi güclü dövlətlərlə də sıx əlaqələr saxlamışdılar. Hətta II Dünya müharibəsi dövründə erməni terror təşkilatları faşist Almaniyasında “Erməni Milli Şurası” təşkil edərək erməni kilsəsinin göstərişi ilə Almaniya ərazisində faşistlərlə əməkdaşlıq edirdilər.

Erməni kilsəsinin terroru himayə etməsi haqqında maraqlı bir fakt amerikalı müəllif C.Makkarti tərəfindən qələmə alınmış “Turks and Armenians: A manual on the Armenian guestion” adlı əsərində qeyd olunmuşdur: “1870-ci illərdən başlayaraq erməni millətçiləri Anadoluda öz vətəndaşlarını Türkiyə hökumətinə qarşı üsyana təhrik etməyə başladılar. Bu proses ilk dəfə 18 mart 1878-ci ildə İngiltərənin Türkiyədəki səfiri Layerd tərəfindən qeyd edilmişdir. Səfir qeyd edir ki, imperiyanın erməni əhalisinin dini lideri ilə görüşlərinin birində erməni azlığının Türkiyə hökumətini devirməyə və türk torpaqları ilə birlikdə Rusiyaya birləşməyə ha-

zırlaşdıqları barədə məlumat almışdı” [2, s.43-44].

Rus tədqiqatçısı N.Şavrov da ermənilərin ilk terror təşkilatlarından biri olan “Daşnaksütyun” partiyası ilə erməni-qriqorian kilsəsi arasındakı sıx əlaqə olduğunu bildirmişdir: “O dövrdə “Daşnaksütyun” partiyasının rəhbərləri erməni kilsəsinin yepiskopu və inqilabi hərəkatın mühüm liderləri inqilabi “təhsilə” xərcləmək üçün pul toplayan ruhanilərin elə özləri idilər” [3, s.64]. XIX əsrin sonu - XX əsrin əvvəllərində irqi ayrı-seçkiliyə əsaslanan mütəşəkkil terror aktları erməni milli mətbuatı və ədəbiyyatı tərəfindən dəstəklənərək, ağır qətllər törədən terrorçular ictimaiyyətə qəhrəman kimi təqdim edilirdi. Rusiya, ABŞ, Fransa və digər ölkələrdə mətbuatda, sonrakı dövrdə isə həm də televiziya kanallarında çalışan bir çox ermənilər məhz bu cür fəaliyyət göstərmişlər. Bu insanlar əllərində olan imkanlardan istifadə edərək erməni terrorçuların törətdikləri vəhşilikləri gizlətmək, ört-basdır etmək, özlərini dünyaya günahsız və məzlum insanlar kimi təqdim etmək üçün istifadə edirlər.

Rus diplomatı general Mayevski xatirələrində bu barədə yazmışdır: “Erməni din xadimləri haqqında bir neçə söz demək istəyirəm. Onların dini fəaliyyəti olduqca cüzidir. Tanrı kəlamlarından kənara çıxaraq daha çox xalqları bir-birinə qarşı qoymaq, qırğınlar törətmək fəaliyyətindədirlər” [4].

Eçmiədzinə (Üçmüədzinə - M.Q.) səfər etmiş fransız maarifçi alim Baron de Bay da bu barədə maraqlı faktlar qeyd etmişdir: “Bu kilsə bir zamanlar saxta pul düzəldənlərin yuvası olub. Bu monastr dini mərkəzdən çox, siyasi mərkəz kimi fəaliyyətdədir. Bu, dünyadakı saf ibadətlə məşğul olan, xalqlar arasında qardaşlıq münasibətləri yaratmaq istəyən xristianları narahat etməlidir” [4].

“Kilsə tanrı və vətəndən öncədir! Kilsə varsa, onlar da var olacaq” deyən bir toplumun kilsə vasitəsi ilə hansı məqsədlərlə terrorçuluğa gəlişini bütün dünya bilməlidir.

**Əsas hissə:**

Cənubi Qafqaza köçürülən ermənilər arasında separatçı-terrorçuluq meyilləri geniş şəkildə inkişaf etmiş və erməni kilsəsi tərəfindən daim dəstəklənmişdir. Azərbaycan torpaqlarında məskunlaşan ermənilər sonradan buralara iddialı olaraq bu torpaqların onlara məxsus olduğunu dünyaya sübut etməyə çalışmışlar. Amma unutmaq olmaz ki, ermənilər təkcə türklərə, azərbaycanlılara qarşı deyil, onları qoruyan ruslara da xəyanət etmişlər. Buna baxmayaraq hazırda Cənubi Qafqazda öz ambisiyalarını reallaşdırmaqda onların ən böyük dəstəkçisi Rusiyadır.

Böyük məqsədlərə çatmaq üçün daim Rusiyaya pənah aparan erməni şovinistləri nəinki Azərbaycanda, eləcə də Cənubi Qafqazda geniş əraziləri zəbt etməklə özlərinə “vətən” qurmağa çalışmışdılar. Şübhəsiz ki, bu vəziyyət həm də Rusiyanın geosiyasi maraqlarına xidmət etməkdə idi. Xüsusən də “Böyük Ermənistan” adlı planı həyata keçirməyi qarşısına məqsəd qoyan radikal-terrorçu erməni təşkilatları müxtəlif ölkələrdə fəaliyyət göstərərək əlaqələr qurmağa, şəbəkə yaratmaqla bu istəklərinə nail olmaq istəyirdilər.

Müsahibə götürdüyüm Şəmsəddin Yəhya oğlu Sadıqov (deportasiyadan öncə 08.12.1964 tarixində Ermənistan SSR-in Vedibasar rayonunda doğulmuş və 1988-ci ilə qədər orada yaşamışdır – M.Q.) erməni kilsəsinin azərbaycanlıların köçürülməsində çox fəal rol oynadığını belə xatırlayır: “Bir gün atam ət kombinatına ət aparmışdı. Növbəsi çatana qədər yaxındakı erməni tanışı baytar Sahabın evinə gedir. O, atamı evdə qoyub başqa iş dalınca gedir. Sahabın atası keşiş idi. Bu keşişin sonralar gözləri tutulmuşdu, ətrafdakıları görə bilmirdi. O, atama yaxın oturub söhbət edir. Atamın adı Yəhya idi, ermənilər ona Yeğiyan deyirdilər. Kor keşiş elə bilmişdi ki, atam Vedidə kolxoz sədri olan erməni Yeğiyandır. Söhbət zamanı deyir ki, “1948-1949-cu illərdə Moskvaya getmişdik, Araçı kəndinin keşişi Araçı Vazgen Stalinlə görüşmüşdü. Bu görüşdə o, İrəvanda azərbaycanlıların sayının azaldığını demişdi və Stalindən xahiş eləmişdi ki, bizə kömək edin, hamısını birdəfəlik çıxardıb, köklərini kəsək, “Böyük Ermənistan” yaradaq. Stalin isə ona qəzəblənib “get ermənilərə de ki, sizə Sibiri və Şimali Qazaxıstanı ayırıram, ora köçürdəcəm” – deyib. Qorxuya düşən Vazgenin həmin gecə ürəyi partlayıb öldü. Biz onu gizli basdırdıq ki, kimsə bu barədə bilməsin”. Söhbətin bu hissəsində Sahab gəlir, atasının nə danışdığını o bilməsin deyə, atam tez ayağa durub “gedək artıq gecdir” deyib, kişi ilə sağollaşıb oradan çıxır” [5].

Azərbaycan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşı Vüqar Səlimov “Erməni qriqoryan kilsəsi və yaxud dini-etnik ekstremizm yuvasının fitnəkarlığı” adlı məqaləsində azərbaycanlılara qarşı ərazi iddialarından SSRİ dövründə erməni katolikoslarından olan II Vazgenin əl çəkmədiyini qeyd etmişdir. Katolikos II Vazgen 1956-cı il

may ayının 12-də Moskvada SSRİ Nazirlər Sovetinin sədri Nikolay Bulqaninlə görüşü zamanı ona iki məktub təqdim etmişdi. Məktubun birində Azərbaycan torpaqları hesabına Ermənistan ərazisinin genişləndirilməsi təklif edilirdi. Digər məktubda isə, erməni katolikosu yalana əl ataraq Şimali Qafqazda, Orta Asiyada, Azərbaycanda və Gürcüstanda yaşayan ermənilərinin yaşayışlarının pis olduğunu, onların çoxlu sayda problemlərlə üz-üzə qaldıqlarını bildirmiş, Azərbaycanın Naxçıvan MSSR, Qarabağ və Gürcüstanın Axalkalaki bölgələrinin ermənilərə verilməsini təklif etmişdi. II Vazgen həm də Sovet hökumətindən xaricdə yaşayan ermənilərin Ermənistana köçürülməsi üçün repatriasiya proqramının hazırlanmasını xahiş etmişdi: “Təbii ki, onlara müvafiq ərazinin verilməsi və proqramın həyata keçirilməsi məqsədilə yaşayış evlərinin tikilməsinə xeyli vəsait, ləvazimat lazımdır” [6]. Bu məktublar kilsə xadimlərinin necə şovinist siyasət aparmalarının aydın göstəricisidir.

Erməni kilsəsini terrorun himayəçisi kimi xarakterizə edən mühüm məqamlardan biri də erməni terror təşkilatlarının kilsə qarşısında hesabat verməsidir.

Erməni kilsəsi öz tarixi ənənəsinə bu günlərdə də sadiq qalaraq, Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqlarına mane olmaq məqsədilə təxribatlar törətməyə başlayıbdır. 2024-cü il aprelin 19-da Azərbaycan və Ermənistan dövlətləri arasında sərhədlərin delimitasiyası sahəsində uğurlu danışıqların aparılması və artıq demarkasiya prosesinin başlanılması kilsənin- bütün ermənilərin katolikosu II Qareginin narahatçılığına səbəb olubdur. Kilsə tərəfindən başladılmış “Vətən naminə Tavuş” hərəkatına bölgənin arxiyepiskopu Baqrat Qalstanyan başçılıq edir. Onlar aksiyalar keçirərək baş nazir Nikol Paşinyanın siyasətinə etiraz edərək, Ermənistanda ictimai-siyasi vəziyyəti gərginləşdirən toqquşmalara səbəb olubdur [7].

Bu barədə ermənilərə məxsus “Azad Avropa/Azadlıq” radiostansiyasında 2024-cü il may ayının 7-də ermənilər “Erməni kilsəsi torpaqların Azərbaycana verilməsinə qarşı etirazları müdafiə edir” adlı ətraflı xəbər yayımlayıbdır. Xəbərdə qeyd edilir ki, Erməni Apostol Kilsəsi hökumətin mübahisəli sərhəd ərazilərini Azərbaycana təhvil vermək qərarına qarşı davam edən etirazlara rəhbərlik edən yüksək səviyyəli din xadimlərindən birinə rəsmi dəstək veribdir. O, Baş nazir Nikol Paşinyan hökumətini həftə sonu Tavuş vilayətinin şimalında, həmin ərazilərə bitişik kəndlərdən birindən Yerevana yürüşə başlayan etirazçıların “qanuni” tələblərini qəbul etməyə çağırıbdır: “Biz Tavuşun sərhədyanı ərazilərində hərtərəfli və zəmanətli həll yolları olmadan, sərhədin delimitasiyası və demarkasiyası adı altında həyata keçirilən və xalqımız üçün yeni təhlükələr yaradan hərəkətləri son dərəcə təhlükəli hesab edirik”. Katolikos II Qareginin rəhbərlik etdiyi şura bildirib ki, kilsənin Tavuş yeparxiyasının rəhbəri arxiyepiskop Baqrat Qalstanyan bölgə əhalisinin üzləşdiyi “ekzistensial çağırışlara” biganə qala bilməzdi.

Nikol Paşinyan isə həmin vaxt keçirdiyi mətbuat konfransında etirazçıları müxalifətin və adı açıqlanmayan “xarici qüvvələrin” köməyi ilə onu devirməyə çalışmaqda ittiham etdi. O, həmçinin bildirdi ki, Qaregin bu prosesin əsl lideridir. Ali Ruhani Şura isə öz növbəsində israr etdi ki, kilsə heç bir “siyasi güc” axtarmır.

N.Paşinyanın ermənilərin böyük əksəriyyətinin mənsub olduğu qriqorian kilsəsi ilə münasibətləri 2020-ci ildə Dağlıq Qarabağda baş verən müharibədən sonra getdikcə pisləşibdir. Qaregin və digər yüksək rütbəli ruhanilər “altı həftəlik müharibə”də (44 günlük müharibə - M.Q.) Kilsə Ermənistanın məğlubiyyətindən sonra Paşinyanın istefasını tələb edən erməni müxalifətinə qoşuldu. Hökumətlə kilsə arasındakı gərginlik Qareginin 2023-cü ilin sentyabrında Azərbaycanın Qarabağı geri alması və nəticədə bölgənin etnik erməni əhalisinin kütləvi şəkildə köçməsinə görə Paşinyanı günahlandırdığı vaxtdan daha da artmışdır [8].

## Nəticə

Hazırda dünyanın düşdüyü ağır şəraiti nəzərə alsaq, beynəlxalq terrorizmə, terror aktlarının icraçılarına və təhrikçilərinə, həmçinin terrorizmi dəstəkləyən, ona kömək edən dövlət və təşkilatlara, xüsusən erməni kilsəsinin siyasətinə qarşı qətiyyətlə mübarizə aparmaq son dərəcə vacibdir. Ermənistan öz daxili strukturunu dəyişdirmədikcə və xarici siyasət strategiyasında erməni diasporunun davamı olan “irredentist” siyasətdən əl çəkmədikcə, regional problemlər həll olunmayacaq və erməni terroru beynəlxalq təhlükəsizliyi təhdid edəcəkdir. Ermənilər kilsənin himayədarlığı ilə ayrı-seçkilik siyasətindən əl çəkməsələr, heç vaxt müstəqil siyasət apara bilməyəcəklər. Bu vəziyyətdən ən çox zərəri şübhəsiz ki, Ermənistan dövləti və ermənilər görəcəkdir, çünki onlar regional əməkdaşlıqdan, müxtəlif regional layihələrdən məhrum qalacaqlar.

## ƏDƏBİYYAT SİYAHISI:

*1. Hüseynov.S, Erməni xəyanəti: Terror, soyqırım ve deportasiya siyasəti. Bakı, Avropa Nəşriyyatı Servis MMC, 1999, 121 s.*

*2. McCarthy, J. ve McCarthy, C. Turks and Armenians: A manual on the Armenian guestion. Washington: Committee on Education, Assembly of Turkish American Associations,1989, 143 s.*

*3. Шавров, Н. Новая угроза русскому делу в Закавказье: предстояшая распродажа Мугани инородцам. Баку, 1990, 85 s.*

*4. Ayna.az, Şəhla Cabbarlı, "Erməni kilsəsi və terror: Böyük yalanın izi ilə.." -16.08.2020. https://ayna.az/ermeni-kilsesi-ve-terror-boyuk-yalanin-izi-ile*

*5. 08.12.1964 tarixində Vedibasarda doğulub, yaşamış Sadıqov Şəmsəddin Yəhya oğlunun xatirəsi*

*6. Səlimov.V, "Erməni Qriqoryan kilsəsi və yaxud dini-etnik ekstremizm yuvasının fitnəkalığı"-17.11.2020 https://scara.gov.az/az/xeberler/print/ermeni-qriqoryan-kilsesi-ve-yaxud-dini-etnik-ekstremizm-yuvasinin-fitnekarligi*

*7. Türküstan.az, Aqil Məmmədov, "Erməni kilsəsi hər zaman separatizmin və terrorun mənbəyi olub" 31.05.2024 https://www.turkustan.az/news/parliament/84228*

*8. "Azad Avropa/Azadlıq" radiostansiyası, "Erməni kilsəsi torpaqların Azərbaycana verilməsinə qarşı etirazları müdafiə edir" -07.05.2024 https://www.azatutyun.am/a/32937069.html*



## XÜLASƏ

Məqalədə azərbaycanlı dinc əhaliyə qarşı terrorun dəstəkçisi və himayəçisi kimi çıxış edən erməni kilsəsinin fəaliyyəti araşdırılmışdır. Erməni terrorizminin ideoloji əsaslarının formalaşdırılması, təşkilatlanması və maliyyə vəsaiti ilə təmin edilməsində kilsənin rolu konkret faktlarla qeyd edilmişdir. Müəllif tarixi müqayisə və paralellər aparmaqla erməni terrorizminin geniş miqyas almasında kilsə xadimlərinin əsl simasını üzə çıxarmağa çalışmışdır.


**Açar sözlər:** *erməni kilsəsi, terrorizm, maliyyə dəstəyi, antitürk siyasəti.*

## The Armenian Church as the driving force of Armenian terrorism


## SUMMARY

The article examines the activities of the Armenian church as a supporter and patron of terrorism against the peaceful Azerbaijani population. The role of the church in the formation of the ideological foundations of Armenian terrorism, its organization, and financial support has been noted with specific facts. The author, by making historical comparisons and drawing parallels, has attempted to reveal the true nature of the clergy in the widespread scale of Armenian terrorism.


**Keywords:** *Armenian church, terrorism, financial support, anti-Turkish policy.*

## Армянская церковь как движущая сила армянского терроризма


## РЕЗЮМЕ

В статье исследована деятельность армянской церкви как сторонника и покровителя террора против мирного азербайджанского населения. Указывается конкретная роль церкви в формировании идеологических основ армянского терроризма, его организации и финансировании. Автор, проводя исторические сравнения и параллели, стремится раскрыть истинную сущность церковных деятелей в расширении масштабов армянского терроризма.


**Ключевые слова:** *армянская церковь, терроризм, финансовая поддержка, антитурецкая политика.*